

Müstəqil Azərbaycan Respublikasının Memarı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunur

It is dedicated to the 100th anniversary of the Great Leader Heydar Aliyev, the Architect of the Independent Republic of Azerbaijan

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin
Azərbaycan Memarlar İttifaqının və
Azərbaycan Milli Kitabxanasının
birgə layihəsi

Joint project with Ministry of Culture
of the Republic of Azerbaijan,
Azerbaijan Union of Architects and
Azerbaijan National Library

C 5030209070
053

ISBN 978-9952-445-19-0
16/C-8740-16

© Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2023
© Azərbaycan Milli Kitabxanası, 2023

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

ami

Azərbaycan
Milli Kitabxanası

XƏLİL CƏFƏROV

AZƏRBAYCAN MEMARLIQ ELEMENTLƏRİ

ARCHITECTURAL ELEMENTS OF AZERBAIJAN

Bakı – 2023

ÖN SÖZ

Azərbaycan mədəniyyətinin böyük hamisi və təəssübkeşi, Müstəqil Azərbaycanın memarı Ulu öndər Heydər Əliyev bütün səmərəli fəaliyyəti boyu həmişə milli memarlığımızın keşiyində dayanaraq, çoxlu sayda memarlıq əsərlərinin inşa edilməsi və onların milli memarlıq ruhunda olmasının qayğısına qalmışdır. Bu gün Bakımızın və digər şəhərlərimizin küçə və meydanlarını bu dahi şəxsiyyətin qayğısı və tövsiyyəsi ilə ucaldılan biri-birindən gözəl və möhtəşəm memarlıq əsərləri bəzəyir. Bu binaların memarlıq həlli təbii ki, xalqımızın əsrlər boyu yaratdığı zəngin memarlıq irsindən qaynaqlanır.

Azərbaycan milli memarlığı xalqımızın həyat tərzini, onun mədəniyyətini özündə təcəssüm etdirən maddi mədəniyyətimizin ayrılmaz mühüm bir hissəsidir. Qədim tarixə, dərin qaynaqlara malik olan memarlıq ənənələrimiz müxtəlif mərhələlər, dövrlər keçərək, tarixi və mədəni təsirlərə məruz qalaraq formalaşmış, dövrümüzə qədər gəlib çatmışdır. Respublika ərazisində mövcud olan çoxsaylı memarlıq abidələri, xalq yaşayış nümunələri özünəməxsus forma və plan, tikinti və mühəndislik texnikası, zəngin bəzək tərtibatı ilə milli memarlıq mədəniyyətimizin dəyərlərini özündə əks etdirir.

Azərbaycan memarlıq irsinin öyrənilməsi və tətbiqi ötən əsrin əvvəllərindən başlayaraq tədqiqatçıların, memarların diqqətini cəlb etmiş, və son dövrlərə qədər bu sahədə çox işlər görülmüşdür.

XX əsrin ortalarında görkəmli Azərbaycan memarı akademik Mikayıl Useynov tərəfindən ilk dəfə olaraq milli memarlıq elementlərinin araşdırılması və tətbiqi ilə bağlı təşəbbüs göstərilmişdir. Həmin dövrdə tədqiqatçılar tərəfindən müxtəlif abidələrə aid materiallar toplanmış, müxtəlif başlıqlar altında bir neçə albomun maketi hazırlanaraq məhdud nüsxədə çap olunmuşdur. Təəssüf ki, həmin iş tamamlanmamışdır.

Mövzunun aktuallığını və əhəmiyyətini nəzərə alaraq, yarımçıq qalmış həmin işə yarım əsr sonra yenidən başlanmış və fərqli bir yanaşma və tərtibatla yekunlaşdırılmışdır.

Ümidvarıq ki, təqdim olunan bu kitab, Azərbaycan milli memarlığına, onun çoxəsrlik ənənələrinə maraq göstərən mütəxəssislər, tədqiqatçılar və bütün oxucular üçün faydalı olacaqdır.

PREFACE

The great patron and initiator of Azerbaijani culture, the great leader Heydar Aliyev, the architect of independent Azerbaijan, always stood guard over our national architecture throughout his effective activity, took care of the construction of a large number of architectural works and their national architectural spirit. Today, the streets and squares of Baku and other cities are decorated with beautiful and magnificent architectural works built with the care and advice of this genius. The architectural solution of these buildings naturally originates from the rich architectural heritage created by our people over the centuries.

The national architecture of Azerbaijan is an inseparable and important part of our material culture, embodying the lifestyle and culture of our people. Our architectural traditions, which have an ancient history and deep roots, have been formed by passing through different stages and periods, being exposed to historical and cultural influences, and have reached our times. Numerous architectural monuments, examples of folk living in the territory of the republic reflect the values of our national architectural culture with their unique form and plan, construction and engineering techniques, and rich decoration.

The study and application of the architectural heritage of Azerbaijan has attracted the attention of researchers and architects since the beginning of the last century, and a lot of work has been done in this field until recent times.

In the middle of the 20th century, the outstanding Azerbaijani architect academician Mikayil Useynov initiated the research and application of national architectural elements for the first time. During that period, researchers collected materials related to various monuments, prepared models of several albums under different titles and printed them in limited copies. Unfortunately, that work has not been completed.

Considering the relevance and importance of the topic, the unfinished work was resumed half a century later and concluded with a different approach and design.

We hope that this presented book will be useful for specialists, researchers and all readers who are interested in the national architecture of Azerbaijan and its centuries-old traditions.

INTRODUCTION

Azerbaijan's architecture is an inseparable and important part of the people' material culture, reflecting their lifestyle and spiritual traditions. Those of long history and deeply laid foundation, Azerbaijan's architectural traditions have cone though different stages, formed subject to historical and cultural influences, and reached our days. Multiple architectural sites and homes throughout Azerbaijan display the people' cultural values with their original shapes, plan solutions, construction-and-engineering technologies, and rich decorations.

Since the early 20th century, Azerbaijan's architectural legacy has been attracting researchers' and architects' attention, great work has been recently done in the field. The book presented continues the research traditions and so has collected elements used in Azerbaijan architecture. It should be noted that, while some researches indirectly or partially regard this, there are no papers published on the very topic of traditional elements discovered in Azerbaijan architecture. During those years, researchers collected evidence related to different architectural sites of different epochs: then, they prepared few albums under various titles and primitively published them in a limited number of copies (2–3) for distribution among professionals only, as a kind of secondary support. One of the albums, Architect's Guidebook, was issued in 1949 by Azgosarchproject, the editor being Mikayil Useynov. The work, unfortunately, had not been improved for the popular edition.

Taking into account relevance and importance of the topic, half a century ago unfinished work was restarted under our initiative and finished with a completely different approach and design.

It should be noted the materials, collected in 1940s and 1950s, had been manuscripts, some of the drawings remaining incomplete. Some other pictures have been exposed to the natural processes of temporal wearing out or proved totally omproperdue to mechanical impacts of various sources. Some other problems have been discovered in terms of systematising.

Azerbaijan Architectural Elements presented displays the editorial board's way, totally different from the earlier formats. As a matter of fact, the previous flaws have been taken into account to be avoided this time, all the stuff has been seriously inspected both in terms of content and graphics.

A selection of the material has been refined and even restored and new ones were added. It has been divided into sections and briefly categorised. Not to tire the buying public with the drawings, we have added relevant photos to the book for better information and visual impression.

We believe the book presented will make a good benefit for experts, researchers and all the amateur readers interested in Azerbaijan's architectural traditions and centuries' old culture.

Qız qalası. İçərişəhər. Bakı.

Maiden's Tower. Icheri Sheher. Baku.

AZƏRBAYCAN MİLLİ MEMARLIQ ELEMENTLƏRİNİN FORMALAŞMA XÜSUSİYYƏTLƏRİ

FORMATION SPECIFICITY TRADITIONAL AZERBAIJAN ARCHITECTURAL ELEMENTS

Azərbaycan milli memarlığı çoxəsrlik ənənələrə malikdir. Azərbaycan ərazisinin coğrafi mövqeyi, təbiətinin rəngarəngliyi həmin ənənələrin formalaşmasına mühüm təsir göstərmişdir. Hələ qədim dövrlərdən xalq yaşayış memarlığında ətraf mühitlə, insanların həyat tərzi ilə bağlı yaranmış təcrübə sonralar formalaşaraq ənənələrə çevrilmişdir. Tikinti təcrübəsi daha çox funksionallıqla bağlı olduğu halda, ənənələr isə həm funksional, bəzi hallarda isə formal və ya dekorativ xarakter daşımağa başlamışdır. Memarlıq, tikinti sənəti inkişaf etdikcə, müxtəlif üslublar, memarlıq məktəbləri yaranmışdır.

Azərbaycan ərazisində formalaşmış Şirvan-Abşeron, Aran, Naxçıvan-Marağa, Təbriz memarlıq məktəbləri xalqımızın əsrlər boyu memarlıq-tikinti sahəsində yığdığı təcrübəni və ənənələri özündə birləşdirir. Həmin məktəblərin yaranması və inkişafı həm təbii-coğrafi amillərlə, həm də siyasi-inzibati prosseslərlə bağlı olmuşdur.

Memarlıq məktəblərinin forma və məkan üslub və texnika, bəzək və material və s. baxımdan fərqli, özünəməxsus cəhətləri ilə yanaşı, onları birləşdirən ümumi xüsusiyyətlər də mövcuddur. Həmin xüsusiyyətləri, başlıca olaraq tikililərin planlaşma və məkan həllində görmək olur.

Azərbaycanın memarlıq və inşaat təcrübəsində diqqəti cəlb edən mühüm amillərdən biri memarlıq elementləridir. Bunlara, tikililərin daxili və xarici məkan həllində istifadə edilən konstruktiv və dekorativ elementləri aid etmək olar. Ayrı-ayrı dövrlərdə yaranmış müxtəlif üslubların özünəməxsus memarlıq elementləri olmuşdur. Təsadüfi deyildir ki, dünya memarlığı təcrübəsində mövcud olan üslubları onlara aid olan elementlər vasitəsi ilə tanımaq olur.

Azərbaycan memarlığının elementləri çoxəsrlik təcrübə nəticəsində yaranaraq zənginləşmiş və bu günə gəlib çatmışdır. Elementlərin formalaşma tarixinə baxarkən, onların iki mənbədən



Qabartma bəzəkli başdaşı. "Daş baba"

Tombstone embellished with a relief. «Dash baba»

Azerbaijan architecture is a craft of many centuries. Azerbaijan's geographic situation and variety of natural conditions importantly influenced the formation of the architectural traditions. It was ancient times that the people had converted their practices of residential architecture connected to environment and lifestyle into forming traditions. The construction experience being rather closely related to the principles of functionalism, the traditions became functional, yet, at the same time, formal or decorative in some cases. Along with construction and designing techniques developed, various methods and schools emerged in the field.


Shirvan-Absheron, Aran, Nakhichevan & Maraga, and Tabriz schools of architectural thought integrate practices and traditions the people have gained for centuries in the field of design and construction . The formation and development of those schools was connected both to natural/geographic factors and political/administrative processes.

Along with the original features of the architectural schools in terms of format, space, method, technique, decoration, raw materials etc., they shared common characteristics as well, found in the lay out and space solutions.

It is architectural elements that, among other important factors, attract one's attention in Azerbaijan architectural and construction practices. Construction and decoration elements used in internal and external spatial solutions could be included into such.

Different method that emerged in different epochs had their special elements. It is not occasional that methods found in the world's architect practices can be learnt through their special elements.

Thus, elements of Azerbaijan architecture have emerged as result of centuries' long experience to get enriched and endure to the present. Considering the formation history of the elements, we can see two sources they've been nurtured from. The first source formed on the



Saxsı qab fraqmenti üzərində təsvir.

Illustration on a fragment of cutlery.



Mömünə xatun türbəsi. XII əsr. Naxçıvan şəhəri

Mausoleum of Momina khatun. XII century Nakhchivan city



Mömınə xatun türbəsinin divar bəzəyi. XII əsr. Naxçıvan şəhəri

Momina khatun tomb wall decoration. XII century. Nakhchivan city

qaynaqlandığını görə bilərik. Birinci mənbə, yerli memarlıq məktəblərinin təcrübəsi və ənənələri əsasında təşəkkül tapmışdır. İkinci mənbə isə xaricdən daxil olan elementlərin müəyyən vaxt və təsirlər nəticəsində transformasiya olunaraq, yerli forma və miqyasa uyğunlaşması, müxtəlif bəzək və naxışlarla zənginləşməsindən bəhrələnir.

Memarlıq elementlərinin funksional mahiyyətindən danışarkən, burada iki xüsusiyyəti müşahidə etmək olur: birinci xüsusiyyət, bu elementlərin əsasən konstruktiv funksiya daşımasıdır. Bununla belə, həmin konstruktiv hissələr forma və bəzək həllinə görə yerli ənənə və üslubların formalaşmasında xüsusi yeri olan elementlərdir. Məsələn, sütunlar, karnizlər, eyvanlar, məhəccərlər, pəncərə şəbəkələri və s. İkinci xüsusiyyət isə, onların yalnız dekorativ və formal təyinatıdır. Məsələn, fasad və interyer bəzəkləri,

basis of traditions and practices maintained by the local schools of architectural thought. The second source was foreign elements that gradually transformed under temporal influences, being matched to local formats and scales and enriched with miscellaneous ornaments and patterns.

In regard to the functional essence of architectural elements, two specificities could be observed. The first one is that those elements bore mainly constructive functions. In fact, those constructive parts are elements playing a special role forming local traditions and methods due to their formal and ornamental solutions. The second specificity solely consists in the field of form and decoration such as facade and interior ornaments; borders; panels; tympanums etc., sometimes referred to as decorative elements.

The land of Azerbaijan has always been rich of raw materials for construction, in particular of

haşiyələr, xonçalar, timpanlar və s. Bunlara bəzən memarlıq bəzək elementləri də deyilir.

Azərbaycan ərazisi inşaat materialları, xüsusilə daş, gil, ağac, gəc və s. ehtiyatları ilə hər zaman zəngin olmuşdur. Eyni zamanda ölkəmizin ərazisində təbii tikinti materialı ehtiyatları qeyri-bərabər yayılmışdır. Bu səbəbdən memarlıq forma və konstruksiyaları, inşaat texnologiyası ayrı-ayrı bölgələrdə müxtəlif şəkildə inkişaf etmişdir. Təsadüfi deyildir ki, memarlıq məktəblərinin yaranmasında həmin amil mühüm rol oynamışdır.

Şirvan-Abşeron ərazilərində mövcud olan əhəngdaşı ehtiyatları, burada daş memarlığın daha yüksək inkişafına səbəb olmuşdur. Əhəngdaşının yumşaq və estetik xüsusiyyətləri ondan müxtəlif, bütöv konstruktiv hissələrin, eyni zamanda, dekorativ-bəzək elementlərinin hazırlanmasında istifadə etməyə imkan yaratmışdır. Azərbaycan ərazisində mövcud olan daş memarlığı abidələrinin gözəl nümunələrinin bir çoxu Şirvan-Abşeron ərazisində yerləşir. Buna misal olaraq, Şirvanşahlar sarayını, Pirsaatçay xanəgahını, Yeddigünbəz məqbərələrini, çoxsaylı qəsr, məscid, hamam və s. tikililəri göstərmək olar.

Hələ qədim zamanlardan Azərbaycan ərazisinin əksər bölgələrində inşaat işlərində bişmiş kərpicdən istifadə etmişlər. Arran, Naxçıvan-Marağa, Təbriz memarlıq məktəblərinin çoxsaylı abidələrində memar və inşaatçıların həmin materialdan necə məharətlə istifadə etdiyinin şahidi oluruq. Kərpicdən inşa edilmiş tikililərin özünəməxsus memarlıq elementləri, bəzək tərtibatı olmuşdur. Əksər hallarda kərpicin həndəsi düzülüşündən istifadə edərək, fasada tərtibat verilirdi. Qarabağlar, Bərdə türbələrində, Ağdam və Şuşa məscidlərinin minarələrində və s. bunu görmək olur. Kərpic-lə tikilmiş binalarda fasad elementləri, məsələn, karniz, haşiyə, çərşivələr və s. bu materialın xüsusiyyətlərinə uyğun qurulurdu. Kərpic materialının xammalı gil olduğundan fasadda işlənəcək bəzək elementlərinin formaları emal mərhələsin-



Qabartma bəzəkli daş friz fraqmenti. XIII əsr. Bayıl qəsri. Bakı buxtası.

Freeze stone fragment decorated with a relief. XIII century. Bayil castle. Bay of Baku.

stone, clay, timber, etc. At the same time, the distribution of those natural resources throughout Azerbaijan has never been equal.

Therefore, architectural forms, designs, construction technologies developed differently



Mis üzərində döymə üsulu ilə bəzədilmiş şərbət qabı. Lahıc qəsəbəsi. İsmayıllı rayonu.

Copper engraved jar for sorbet. Lahij village. Ismailly.

**Kiş məbədi. XII əsr.
Kiş kəndi.
Şəki rayonu.**

Kish temple. XII century village Kish. Sheki region





**Şəki Xanları Sarayı.
XVIII əsr. Şəki şəhəri**

Shaki Khan's Palace. XVIII century. Shaki city.

də hazırlanır və tikinti zamanı divarda qurulurdu. Kərpic binaların fasad tərtibatında gəc və kaşı elementlərindən də istifadə edilirdi.

Azərbaycanın meşələrlə zəngin olan bölgələrində binaların tikintisində ağac materialından geniş istifadə olunmuşdur. Ağac materialının

in different regions. It is not occasional the geographic factor of material availability played a great role in the emergence of the schools of architectural thought.

Limestone, available in the region of Shirvan and the Absheron Peninsula, has determined



**Qabartma bəzəkli
qəbirüstü daş fiqur.**

Gravestone decorated with figured relief.



a relatively high level of development in stone architecture. Softness and aesthetic attraction limestone is notable for enabled using it for various whole constructive parts and, simultaneously, for decoration.

After all, many of beautiful stone structures in Azerbaijan architecture are located in Shirvan and on the Absheron Peninsula. The Shirvan Shahs' Palace, a Sufi shrine on River Pirsaat, Yeddigumbez Tombs, and many castles, baths etc. in Baku and around could be exemplified herein.

It was ancient times that most regions in Azerbaijan had already been developed with burnt brick used as a construction material. Multiple architectural sites attributed to Aran, Nakhichevan & Maraga, and Tabriz schools display skilful uses of the material. Buildings from bricks possess special architectural elements and decorative composition. In most cases, we can see the right geometry of the brick used for facade composition. This can be witnessed in Karabakhlar, Barda Tombs, minarets of Aghdam, Shusha mosques and etc. Facade elements of brick buildings e.g. cornices, borders, frames, etc. were created with brick specificities considered. Bricks being of clay, decoration elements to be used for facade were prepared at the stage of brick manufacturing to be implemented during the construction process. Tiles were used as elements of facade decoration in brick buildings as well.

In forested regions of Azerbaijan, timber was commonly used for construction. Wood was applied in different parts of houses and served for different architectural elements, which would determine the emergence of original design throughout those regions. The land being rich of

Şəki Xanları Sarayının divar bəzəklərindən fraqment. XVIII əsr. Şəki şəhəri.

Fragment of the wall ornament from the Palace of Shaki Khan. XVIII century Shaki.

binanın müxtəlif hissələrində tətbiq edilməsi və ondan müxtəlif memarlıq elementlərinin hazırlanması, həmin bölgələrdə özünəməxsus memarlıq ənənələrinin yaranmasına səbəb olmuşdur. Meşə ilə zəngin olan ərazilərdə bəzən bina bütövlükdə ağacdan tikilirdi. Binaların həm xaricində, həm də interyerində istifadə olunan ağac hissə və elementlər, tutduğu mövqeyə görə bəzədilirdi. Bu eyni zamanda ağac materialının yumşaqlığı və emal üçün rahat olması ilə bağlı olmuşdur. Günümüzə gəlib çatmış çoxsaylı, müxtəlif təyinatlı tikililərdə rastlaşdığımız ağac elementlər - sütun, kapitel, sürahi, dirsək, şəbəkə, qapı, pəncərə, örtük tirləri, haşiyə və s. yuxarıda dediklərimizi sübut edir.



Yəhər üstü bəzək. Bakı. XIX əsrin II yarısı.


Ornament of the saddle. Baku. The second half of the XIX century.

Əvvəldə qeyd etdiyimiz kimi, hələ qədim zamanlardan Azərbaycanın memarlıq və inşaatla məşğul olan sənətkarları inşa etdikləri binaların dekorativ tərtibatına xüsusi diqqət yetirirdilər. Bu iş binaların təyinatına və sahibinin sosial-maddi səviyyəsinə uyğun aparılırdı. Tikinti prosesində həm xüsusi dekorativ-bəzək elementlərindən istifadə olunurdu, həm də binaların müxtəlif

forests, houses were sometimes entirely built of wood. Wooden parts and elements were decorated with reference to their location, either exterior or interior. This was also connected to wood as a soft and easy to refine material. Numerous wooden elements such as pillars, capitels, handrails, net frames, doors, windows, roof beams, borders etc., which have lasted till today in buildings of different purposes, prove the above mentioned.

As we have already told, Azerbaijan professionals in architecture and construction have been paying special attention to decorative aspects since ancient times.

This was done in accordance with the building purpose and the owner's socio financial capacity. Decoration was arranged both with special elements used and constructive parts beautified apart. The arrangement of constructive elements often depended on the kind of the material used and the location of the element within the building. For example, being the most visible parts, the front entry door, main facade



Gülüstan türbəsinin divar fraqmenti. XV əsr. Culfa rayonu. Naxçıvan Muxtar Respublikası.

Fragment of the Gulustan tomb. XV century. Julfa. Nakhchivan Autonomous Republic.



Qarabağlar türbəsi kompleksi. XII–XIV əsrlər. Naxçıvan Muxtar Respublikası.

The complex of the Garabaglar tombs. XII–XIV centuries. Nakhichivan Autonomous Republic.

konstruktiv elementləri ayrılıqda bəzədilirdi. Konstruktiv elementlərin tərtibatı, çox vaxt istifadə olunmuş materialın növündən və həmin elementin binanın hansı hissəsində yerləşməyindən asılı olurdu. Məsələn, əsas girişin qapısı, baş fasadın sütunları, kapitelləri, örtük tirlərinin çıxıntıları, balkon, eyvan sürahiləri və s. daha çox diqqət mərkəzində olduğundan, onların estetik həllinə böyük əhəmiyyət verilirdi.

Azərbaycan memarlığında, binaların daxili və xarici tərtibatında müxtəlif bəzək elementlərindən, naxış kompozisiyalarından istifadə olunmuşdur. Qeyd etmək lazımdır ki, dekorativ tətbiqi sənətlərin bir çoxu memarlıqla sıx əlaqədə inkişaf etmişdir. Həmin sənətlərin bəziləri memarlıq, inşaat sahələrində geniş tətbiq olunmuş-

pillars, capitels, roof beam openings, balconies, veranda handrails etc. were considered very important in terms of their aesthetic solutions.

Various décor elements and ornamental compositions were used for exterior and interior arrangement in Azerbaijan architecture. It should be noted most of the applied arts developed closely connected to architecture.

Some of those arts were largely applied in architecture and construction, for example, stone and wood carvings, net frames, engraving, tiles etc.

Yet some folk décor arts such as carpet weaving, cooper and iron craft: jewellery : calligraphy etc., even though out of direct connection to architecture, resembled the above mentioned

dur. Məsələn, daş üzərində oyma, ağac üzərində oyma, şəbəkəçilik, həkkaklıq, kaşıçılıq və s.

Bəzi dekorativ xalq sənətlərinin isə, məsələn, xalçaçılıq, misgərlik, dəmirçilik, zərgərlik, naqqaşlıq və s. memarlıqla birbaşa əlaqəsi olmasa da, onların bədii-estetik üsulları, forma və naxış yaratma tərzləri oxşar olmuşdur.

İslamaqədərki dövrlər istisna olmaqla, sonrakı dövrlərdə təsviri və tətbiqi sənətlərdə insan təsvirlərinin işlənməsi islam dininin hökmlərinə zidd olduğundan, Azərbaycan memarlığında və başqa xalq sənətlərində naxışlı və süjetli kompozisiyalardan daha geniş istifadə edilmişdir.

Naxış kompozisiyaları nəbati və həndəsi elementlərdən yaradılırdı. Nəbati naxışlar təbiətdən alınma müxtəlif bitki, yarpaq, gül, qönçə və s. elementlər əsasında qurulurdu. Bu elementlər bir-biri ilə müxtəlif formalarda – simmetrik, asimmetrik, lentvari, radial, ritmik və s. qaydalarda birləşərək, mürəkkəb kompozisiya təşkil edirdi.

Həndəsi naxışlar da yenə təbiətdəki kristallık strukturlu elementlərin (Bu elementlərin əsasında qurulmuş naxışlar ilk dəfə görkəmli alim Xudu Məmmədov tərəfindən araşdırılmış və "kristallık naxış" adı ilə elmi ədəbiyyata daxil edilmişdir) quruluşundan istifadə etməklə, müxtəlif həndəsi fiqur və xətlərin müəyyən düzümü və kəsişməsindən yaradılırdı. Belə həndəsi naxışlar "girih" naxışları adlanır.

Azərbaycan ərazisində mövcud olan bir sıra memarlıq abidələrində, xalq yaşayış evlərində mürəkkəb quruluşlu, təkrarlanmayan girih naxışlarına rast gəlmək mümkündür. Bu nümunələr naxış yaradıcılığı sahəsində çalışmış qədim sənətkarların yüksək estetik səviyyəsi ilə



Şirvanşahlar Sarayı kompleksi. Murad darvazasının fraqmenti. XVI əsr. Bakı şəhəri.

The complex of the Shirvanshahs palace. Fragment of the Murad Gate. XVI century C

Şirvanşahlar Sarayı kompleksi. Şah məscidinin minarəsi. XV əsr. İçərişəhər. Bakı şəhəri.

The complex of the Shirvanshahs palace. Minaret of the Shah's Mosque. XV century. Icheri Sheher. Baku.



yanaşı, eyni zamanda onların həndəsə, riyaziyyat, kimya, fizika elmlərinə dərindən bələd olduqlarını göstərir. Mömінə xatun, Yusif Küseyr oğlu, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki Xanları sarayı və s. abidələrdə rastlaşdığımız mürəkkəb naxışlar sübut edir ki, yuxarıda qeyd etdiyimiz elmlərə yiyələnmədən, xüsusi həndəsi qurma və hesab tələb edən belə mürəkkəb bəzək elementləri yaratmaq mümkün deyildir.

Memarlıq sahəsində işlənmiş naxış elementlərinin təhlili göstərir ki, hələ qədim dövrlərdən dekorativ-tətbiqi sənətlər, xalq sənətləri və memarlıq-inşaat sənəti naxış yaradıcılığı sahəsində qarşılıqlı surətdə bəhrələnərək, əlaqəli şəkildə in-

in terms of their format and ornament styles. Except pre-Islamic times, as images of human beings were prohibited by the Muslim clergy, Azerbaijan applied arts and architecture largely used patterns and plotted compositions.

Patterned compositions were generated from floral and geometric elements. Floral patterns were formed on the basis of different plants, leaves, flowers, buds etc. Those elements came together to make different arrangements of different shapes (symmetric, asymmetric, striped, radial, rhythmic etc.)

Geometric patterns were not only based on natural crystal structures, which was discovered and explored by Hudu Mammadov, a prominent Azerbaijan scientist, who even introduced the notion of crystal patterns into research literature, but also generated from different geometric shapes and overlaps. Such patterns are called "broken".

Complicated and non-repeated patterns can be found in a number of architectural sites and houses around Azerbaijan. Along with a high aesthetic level demonstrated by ancient artists in the field of patterns, heir deep knowledge of geometry, chemistry and physics is also evident.

We have found complex patterns in Momine Khatun's , Yusuf Kuseyr Oglu, Karabakhlar and Barda tombs : Shirvan Shahs' and Shaki Khans' Palaces : and other architectural sites prove it would have been impossible to create such sophisticated décor elements but for the above mentioned scientific knowledge along with special geometric arrangements and calculations.

The analysis of patterns used in the field of architecture shows applied décor crafts, popular crafts; architecture and construction developed in mutual interaction and improved each other. It is not occasional that patterns originally generated for rugs, embroidery, metals, and stone can be found in architecture. However ,while pieces of applied arts bear an individual character due to their aesthetic significance and psychological

kişaf etmişlər. Təsadüfi deyildir ki, qədim xalça və tikmələrdə, metal və daş üzərində işlənmiş naxış nümunələrinə memarlıq abidələrində də rast gəlmək olur. Lakin bədii-estetik əhəmiyyətinə və psixoloji təsir dairəsinə görə dekorativ-tətbiqi sənət nümunələri fərdi xarakter daşıyırsa, yəni həmin əşya konkret olaraq bir şəxsə aid olub, onun tələbatını və zövqünü oxşayırsa, memalıq əsərləri bədii həlli ilə tək aid olduğu şəxsə deyil, həmin binanı seyr edən insanlara və bütövlükdə ictimai zövqlərə təsir edir və onları formalaşdırır.

Beləliklə, Azərbaycan memarlığında işlənən milli elementləri, həm funksional cəhətləri ilə, həm də bədii-estetik təsiri ilə tikililərdə, sadəcə mühəndislik təxəyyülünün məhsulu kimi deyil, eyni zamanda incəsənət nümunəsi kimi dəyərləndirmək olar. Azərbaycan milli memarlığının formalaşmış, özünəməxsus obraz və ənənələri milli memarlıq elementlərinin birbaşa iştirakı ilə baş vermişdir.

Müasir memarlıq əsərlərində xalqımızın əsrlər boyu yaratdığı memarlıq irsini yaşatmaq və eyni zamanda bu günkü tələblərə uyğun şəkildə, düzgün istifadə etmək baxımdan, milli memarlıq elementlərini dərindən bilmək lazımdır. Yalnız bu halda yaradılan memarlıq əsərinin uğurlu nəticəsinə, onun Qız qalası, Mömінə xatun türbəsi, Şirvanşahlar sarayı, Şəki Xanları sarayı və s. kimi milli dəyərlər sırasında uzunömürlü olacağına inanmaq olar.



Nar. XIX əsrin əvvəli. Cənubi Azərbaycan. Azərbaycan Milli İncəsənət muzeyi

Pomegranate. The beginning of the 19th century. Southern Azerbaijan. Azerbaijan National Museum of Art

influence that is to say the piece belonged to a certain person and resembled her/his demand and taste, architectural structures do not influence only the owner, but also all the residents and even passers-by to form public taste in general.


Thus, both functional aspects and aesthetic influences of traditional elements in Azerbaijan architecture cannot be only assessed as a mere product of the engineer's concept, but also as a piece of arts. Hence, concepts and traditions originally formed in Azerbaijan architecture came to be with the elements directly participating.

To recreate centuries' long architectural legacy of Azerbaijan modern architectural pieces and simultaneously use it in accordance with today's requirements, one would need to deeply know the traditional architectural elements.

Only then would it be possible to believe to success of a new architectural piece designed and constructed for its long-lasting existence matching the aesthetic level of such national values as the Maiden's Tower, Momine Khatun's Tomb, Shirvan Shahs' Palace, Shaki Khans' Palace, etc.

Qəbirüstü oyma bəzəkli daş sənduqə.

Carved engraved tombstone.





PORTALLAR VƏ GİRİŞLƏR

Portal – binaların əsas girişlərini fərqləndirmək və cəlbedici etmək üçün tətbiq edilən dekorativ və konstruktiv həcmi element.

Hələ qədim zamanlardan insanlar yaşadıqları evlərin girişlərini müxtəlif vasitələrlə bəzəyirdilər. Tikinti sənəti inkişaf etdikcə girişlər də dəyişir, insanların zövqünə və sosial vəziyyətinə görə tərtib olunurdu. Təsadüfi deyildir ki, memarlıq üslublarının özünəməxsus giriş həlləri formalaşmışdır. "Portal" termini kimi elmi ədəbiyyata daxil olmuş bu memarlıq elementi, regional memarlıq üslublarında da müxtəlif dəyişikliklərə uğrayaraq, geniş yayılmışdır. Azərbaycanın memarlıq təcrübəsində də, memar və xalq sənətkarlarımız binaların girişlərinə xüsusi önəm vermiş, onları müxtəlif forma və elementlərlə zənginləşdirmişlər. Azərbaycan milli memarlığında rast gəlinən portal nümunələri, adətən, binanın fasadından önə çıxaraq, daxilində giriş qapısı yerləşən həcm formasında həll olunurdu. Əksər hallarda portalın daxili boşluğu tağbənd örtüklə tamamlanır və qapı divarı nisbətən dərinlikdə yerləşirdi. Giriş qapılarının boşluqları da çox vaxt tağ formasında qurulurdu. Lakin, yuxarı hissəsi adi arxitrav şəklində həll edilmiş portallara da rast gəlmək olur.

Portalların daxili və xarici səthləri müxtəlif bəzək elementləri ilə bəzədilirdi. Bəzən sifarişçinin sosial vəziyyətinə, binanın təyinatına uyğun olaraq, tağbənd örtüyün alt hissələrinin bəzədilməsində daha mürəkkəb bəzək elementlərindən və ya stalaktidlərdən istifadə olunurdu.

Portalların ən gözəl nümunələrinə Bakının Şirvanşahlar sarayında, Şəki Xanları sarayında, Ordubad, Quba, Gəncə və s. şəhərlərin bir sıra qədim ev və dini tikililərində rast gəlmək olur.

PORTALS AND ENTRANCES

A portal is a decorative and constructive volume element to distinguish between main entrances of a building and make them attractive.


It was times that people had already been decorating entrances to their homes in different years. Entrances changed along with architecture developing to match people's tastes and social positions. It is not occasional that architecture formed professional entrance solutions. "Portal" entered professional vocabulary; this architectural element became common though subject to modifications due to regional architectural and other specificities. Azerbaijan architectural practices demonstrate highly appreciating entrances by architects and artists, who decorated them with various shapes and elements. Portal specimens in traditional Azerbaijan architecture usually displayed a convex volume solution with the door in the deep. In the most cases, the internal hollow of the portal is completed with an arch. Hollows of front doors were also arch-shaped in many cases. However, a usual architrave solution is also found among portals.


The internal and external surfaces of portals were decorated with different elements. Sometimes, to match the social status of a client and the purpose of a building, more complex décor elements or stalactites were used to beautify the lower arch parts.

The most beautiful examples of portals can be found in Shirvan Shah's Palace (Baku), Shaki Khan's Palace, and other houses or shrines in Ordubad, Gubah, Ganjah and other Azerbaijan cities.

Şirvanşahlar Sarayı kompleksi. Murad darvazasının cizgisi.


Shirvanshah's Palace Complex. Murad gate circuit.





Şirvanşahlar Sarayı kompleksi. Divanxananın qərb portalının cizgisi.

Shirvanshah's Palace Complex. Circuit of the western portal of divankhana.



Şirvanşahlar Sarayı kompleksi. Divanxananın qərb portalının tərtibatı.

Shirvanshah's Palace Complex. Design of the western portal of divankhana.


Şirvanşahlar Sarayı kompleksi. Divanxananın qərb portalı. XV əsr. Bakı şəhəri.

Shirvanshah's Palace Complex. Western portal of divankhana. XV century. Baku.

Portalın tərtibat nümunəsi.


Sample of portal design.






Portalın tərtibat nümunəsi.

Sample of portal design.



Şirvanşahlar Sarayı kompleksi.
Divanxana. XV əsr. İçərişəhər. Bakı.

Shirvanshah's Palace Complex. Divankhana.
XV century. Icherisheher. Baku.



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various samples of the design of portals and entries.

Portalın tərtibat variantı.

Version of the portal design.




Şirvanşahlar Sarayı kompleksi. Divanxananın giriş portalı. İçərişəhər. Bakı.


Shirvanshah's Palace Complex. The entrance portal of divankhana. Icherisheher. Baku.

Şirvanşahlar Sarayı kompleksi. Sarayın giriş portalı. XV əsr. Bakı şəhəri.


Shirvanshah's Palace Complex. The entrance portal of the palace. XV century. Baku city.



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances.




Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances.




Portal və girişlərin müxtəlif tərtibat nümunələri.


Various examples of design of portals and entrances.



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances.



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances.




Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances..

İçərişəhər. Cümə məscidinin nportalı və giriş qapısı. Bakı şəhəri.

Icherisheher. The portal and the front door of the Juma mosque. Baku.


Portal və girişlərin müxtəlif tərtibat nümunələri.


Various examples of design of portals and entrances..



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.

Various examples of design of portals and entrances..






Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances..



Portal və girişlərin müxtəlif tərtibat nümunələri.
Various examples of design of portals and entrances..





Portalın tağ profilinin nümunəsi.


An example of an arch portal profile.


Portalın tağ profilinin nümunəsi və qurulma qaydası.


Examples and installation rules of arch portal profile.















Portal tağlarının müxtəlif nümunələri və qurulma qaydaları.
Various examples of arched portals and installation rules.









Portal tağlarının müxtəlif nümunələri və qurulma qaydaları.
Various examples of arched portals and installation rules.

QAPILAR VƏ PƏNCƏRƏLƏR

Qapılar və pəncərələr – binaların mühüm konstruktiv, funksional elementi, eyni zamanda eksteryer və interyer tərtibatının əhəmiyyətli tərkib hissələridir.

Qapı və pəncərələrin binada funksional təyinatı nə qədər mühümdürsə, onların estetik-psixoloji baxımdan göstərdikləri təsir eyni dərəcədə yüksəkdir. Bu baxımdan, tikililərin memarlıq əsəri kimi formalaşmasında qapı və pəncərələr müstəsna rol oynayır. Bu elementlərdən fasadda binanın təyinatına uyğun obrazının yaradılmasında, işıq-kölgə, dərinlik, ritm yaradan vasitələr kimi istifadə olunur.

Azərbaycan memar və sənətkarları memarlıq təcrübəsində qapı və pəncərələrin texniki və bədii həllinə xüsusi önəm vermiş, hər dövrə və üsluba uyğun nümunələr yaratmışlar. Fasadda qapı və pəncərə boşluqlarının ölçülərinin müəyyənləşdirilməsində təbii iqlim şəraiti və mühafizə tələbləri böyük əhəmiyyət kəsb etmişdir. Belə ki, isti və ya soyuq hava şəraitində binanın daxilində normal temperatur yaratmaq üçün, eyni zamanda hərbi münaqişələrin tez-tez baş verdiyi dövrlərdə müdafiə məqsədilə pəncərə və qapının ölçüləri nisbətən kiçik götürülürdü və ya küçə fasadlarına pəncərə qoyulmazdı. Müasir dövrdə bu amillər demək olar ki, əhəmiyyətini itirmişdir.

Qapı və pəncərə boşluqları düzbuçaqlı, tağvari, çatmatağ, yarımdairə və s. formalarda həll olunurdu. Boşluqların ətrafı sütun, pilyastr, haşiyələr, timpan və s. elementlərlə bəzədilirdi. Pəncərə boşluqlarında bəzən ağac, metal və ya daş şəbəkədən istifadə olunurdu. Qapılar da əsasən ağacdan hazırlanır və üzərində metaldan müxtəlif, cəftə, taqqılbab, həncamə (rəzə) və s. elementlər işlənərdi. Qapıların tərtibatında müxtəlif xonça, haşiyyə, şəbəkə və relyef naxışlarına rast gəlmək olur.

DOORS AND WINDOWS

Doors and windows are important constructive, functional and decorative components of a building both in terms of exterior and interior.

However important the functional purpose of windows and doors is, their aesthetic and psychological influence is equally high. After all, windows and doors play an exceptional role for a building to come as a single piece of architecture. These elements are used to create the façade look of a building according to its purpose, with architectural “chiaroscuro”, depth and rhythm generated and maintained.


Azerbaijan architects and artists particularly appreciated the technical and creative solutions for windows and doors in their practices and developed proper variants to match their epochs and methods applied.

Natural/climatic conditions and security requirements were very important to determine façade frames doors and windows. As a matter of fact ,the latter ones were designed relatively small, and facades were never given a window, both to keep a comfortable temperature either in winter or in summer and avoid adverse entry during wartimes .Nowdays , tehse factors have virtually lost their significance.

Openings for windows and doors could have rectangular, arched, Ogee, semicircular etc. solutions, and were surrounded with columns, pilasters, hashiyes, timpani and other décor elements. Wooden or stone shebeke was sometimes used for window openings. Doors were mostly wood, too and covered with different metal decorations, serving as bolts (jefte, reze etc.).Various khoncha, hashiyes, shebeke and relief patterns can be found as door decoration.


Qapıların müxtəlif tərtibat nümunələri.

Various examples of the design of doors.



Qapıların müxtəlif tərtibat nümunələri.

Various examples of the design of doors.






Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.

Giriş qapısının tərtibat nümunəsi. Şirvanşahlar kompleksi. İçərişəhər. Bakı.


Example entrance door design.
Shirvanshah's Complex.
Icheri Sheher. Baku.




Qapının tərtibat nümunəsi
Example of a door design.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Qapıların müxtəlif tərtibat nümunələri.
Various examples of the design of doors.




Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.





Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.




Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.





Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.


Tarixi binanın pəncərə tərtibatı nümunəsi.

Sample of a window design of a historic building.










Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.



Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.




Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.


Nizami Gəncəvi. "Xəmsə". "İsgəndər və yeddi müdrik" miniatürü. 1495-ci il, Behzad.

Nizami Ganjavi. "Hamsa". Miniature "Alexander and the Seven Wishes". 1495, Behzad






Memarlıq abidələrinin pəncərə nümunələri.
Samples of windows of architectural monuments.




Nizami Gəncəvi. "Xəmsə".
"İsgəndər və yeddi müdrik"
miniatürü. 1495-ci il, Behzad.


Nizami Ganjavi. "Hamsa".
Miniature "Alexander and the Seven Wishes". 1495, Behzad




Memarlıq abidələrinin qapı və pəncərələrində istifadə edilmiş elementlər.
Elements used in the doors and windows of architectural monuments.



Memarlıq abidələrinin qapı və pəncərələrində istifadə edilmiş elementlər.
Elements used in the doors and windows of architectural monuments.




Memarlıq abidələrinin qapı və pəncərələrində istifadə edilmiş elementlər.
Elements used in the doors and windows of architectural monuments.




Qədim qapılarda istifadə edilmiş taqqılbab və halqa nümunələri.

Hammers and rings used in ancient doors.



Qədim qapılarda istifadə edilmiş taqqılbab, halqa, həncamə, cəftə nümunələri.

Hammers, hinges, rings, closures used in the ancient doors.



Qədim qapılarda istifadə edilmiş taqqılbab, halqa, həncamə, cəftə nümunələri.
Hammers, hinges, rings, closures used in the ancient doors.



EYVANLAR
(BALKONLAR, LOGIYALAR, ERKERLƏR)

Eyvan – binaların xaricində (tərkibində də ola bilər), lakin onlara bitişik, üstübağlı, yan tərəfləri açıq tikilidir.

Azərbaycan ərazisinin mülayim iqlim şəraiti, evlərin ətrafında yay yerləşgələrinin tikilməsini zəruri etmişdir. Binanın daxili məkanı ilə ətraf mühitin, təbiətin əlaqəsi, məhz eyvanlar vasitəsilə baş verir. İsti hava şəraitində, yağmurlu günlərdə insanların istirahət və məşğuliyyət yeri eyvanlar olur. Tarixi baxımdan eyvanlar erkən tikililərdən sayılır və birmərtəbəli evlərin ətrafında, onlara bitişik, sütunlar və örtükdən ibarət olmaqla inşa olunurdu. Sonrakı dövrlərdə, eyvanlar səkili və çoxmərtəbəli evlərdə də tətbiq edilərək, müxtəlif forma və adlarla, memarlıq və tikinti sənəti təcrübəsində mühüm bir elementə çevrilmişdir.

Balkon müasir memarlıqda işlənən və əslində eyvanın bir növü olan yerləşgədir. Çoxmərtəbəli binaların fasadından çıxıntı şəklində həll edilir və adətən açıq məkanlı olur.

Eyvanların başqa bir növü logiyalardır ki, onlar iki və daha çox mərtəbəli binaların fasadından kənara çıxmayan, yan tərəfləri qapalı və ön tərəfi açıq, məhəccərlə hüdudlanan məkanlardır.

Erkerlər isə binanın daxili hissəsi olaraq, əsasən ikinci mərtəbədən başlayaraq, fasaddan qabarıq şəkildə çıxmış, iri pəncərələrlə qapanmış məkandır. Azərbaycan milli memarlıq nümunələrində eyvanların, balkonların həlli, istifadə olunan materiallara görə müxtəlifdir. Tərtibat baxımdan, sütunlararası üst məsafələrdə müxtəlif formalı tağlara rast gəlmək olur. Eyvan və balkonların tərtibatında müxtəlif tipli sütun və pilyastrlardan, kapitellərdən, daş və ağac sürahilərdən, şəbəkələrdən, metal məhəccərlərdən, bəzək kimi isə müxtəlif naxışlardan, haşiyyə və xonçalardan istifadə olunur.

VERANDA (BALCONY, LOGGIA, BAY WINDOW)

This kind of structures, roofed, exterior, adjacent and open side one, is called eyvan in traditional Azerbaijan architecture.

Local climatic conditions, notable for long warm seasons, necessitated relevant living spaces. It was Eyvans house interiors were connected to social and natural environment through, and people had a place both for the rest and work in, either on a warm day or on a rainy one.


Eyvans are counted among the earliest structures in traditional Azerbaijan architecture and were built around single floor houses with joints thereto, columns and roofing.


During the later periods, eyvans would also be applied to multi-floor houses with pavement to gain different shapes and names as an important element of architectural and construction practices. In modern architecture, the "balcony" term means a kind of eyvans, or usually open spaces coming out of facades in high raises.


Another kind of eyvans is represented by loggias, which are spaces within the facades of buildings of two or more floors, their sides closed and front open with railing. An internal part of a building, a bay-window usually starts on the first floor as a convex closed space with large windows. Among samples of traditional Azerbaijan architecture, solutions for eyvans, balconies etc. can be distinguished in terms of materials used. Servings as decoration, arches of different shapes can be found between columns. Various kinds of columns, pilasters, capitels, wooden or stone railing, shebeke, metal handrails, patterns, hashiye, and khonchas and applied as parts of the design.

Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.









Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.


Design of balconies found in folk architecture.



Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.


Design of balconies found in folk architecture.






Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.






Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.
Design of balconies found in folk architecture.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi (keçmiş "Metropol" mehmanxanası) binasının eyvan həlli.

The balcony of the National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi (former Hotel Metropol).




Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.



Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.




Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.


Sadıqov qardaşlarının kirayə məqsədli yaşayış evi. Fasadın fraqmenti. 1910–1912-ci illərdə inşa olunmuşdur. Bakı şəhəri.

Residential house of Sadykhov brothers for rent. Fragment of the facade. It was built in 1910-1912. Baku city.




Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.




Xalq memarlığında rast gəlinən eyvan tərtibatı nümunələri.

Design of balconies found in folk architecture.




Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.
Samples of balcony solutions in historic residential buildings.




Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.

Samples of balcony solutions in historic residential buildings.




Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.


Samples of balcony solutions in historic residential buildings.





Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.
Samples of balcony solutions in historic residential buildings.





Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.
Samples of balcony solutions in historic residential buildings.















Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.
Samples of balcony solutions in historic residential buildings.














Tarixi yaşayış binalarında balkonların həlli nümunələri.
Samples of balcony solutions in historic residential buildings.













Tarixi yaşayış binalarında balkonların həlli nümunələri və elementləri.
Samples and elements of balcony solutions in historic buildings.





